*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 dekabr 2016-cı il № 98 (2113) Qiymәti 25 qəpik


## Rəsmi xronika

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokstaynın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu və uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra daha da genişləndiriləcəyinə əminlik ifadə olunub.*

*Söhbət zamanı ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də İtaliyanın "Danieli & C. Officine Meccaniche S.p.A" şirkətinin idarə heyətinin rəhbəri və baş icraçı direktoru Gianpietro Benedettini qəbul edib.*

*Azərbaycanda sahibkarlar üçün gözəl şəraitin mövcud olduğunu deyən dövlətimizin başçısı ölkəmizin xarici investorların cəlb edilməsində maraqlı olduğunu bildirib. Prezident İlham Əliyev investorların və bütün sahibkarların maraqlarının qorunması üçün zəruri tədbirlərin dövlət tərəfindən bundan sonra da görüləcəyini deyib.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Bolqarıstanın vitse-prezidenti Marqarita Popovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında əməkdaşlığın enerji, hüquq, mədəniyyət və digər sahələrdə genişləndirilməsi və qarşılıqlı təcrübə mübadiləsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.*

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Gürcüstanın Müdafiə naziri Levan İzorianın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

AZƏRTAC xəbər verir ki, ilk rəsmi səfərini Azərbaycana etməsini ölkələrimiz arasında yaxın münasibətlərin təzahürü kimi dəyərləndirən Levan İzoria ikitərəfli əməkdaşlığımızın inkişafında mühüm rol oynamış xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad etdi. Gürcüstanın Azərbaycanın ərazi bütövlüyünü bundan sonra da dəstəkləyəcəyini bildirən nazir Azərbaycanın da öz növbəsində Gürcüstanın ərazi bütövlüyünə verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Gürcüstanın Müdafiə naziri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasının vacibliyini vurğulayaraq bildirdi ki, bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü və suverenliyi əsasında həll edilməlidir. Levan İzoria ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğuladı.

Gürcüstanın Müdafiə nazirinin ilk rəsmi səfərini Azərbaycana etməsinin ölkələrimiz arasında münasibətlərin yaxşı göstəricisi olduğunu deyən Prezident İlham Əliyev strateji dostluq əlaqələrinin müxtəlif istiqamətlərdə, o cümlədən təhlükəsizlik sahəsində uğurlu inkişafından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü daim dəstəkləyib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı qeyd etdi ki, Minsk Qrupunun həmsədr ölkələri dəfələrlə status-kvonun qəbuledilməzliyini və onun dəyişilməsinin vacibliyini bəyan ediblər və bu, münaqişənin nizama salınmasının əsasını təşkil etməlidir. Prezident İlham Əliyev ölkələrimizin Müdafiə nazirlikləri arasında əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

# Azərbaycanın Baş naziri Gürcüstanın Müdafiə naziri ilə görüşüb

Dekabrın 16-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə Gürcüstanın Müdafiə naziri Levan İzorianın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yeni hökumətin tərkibində yüksək vəzifəyə təyin olunması münasibətilə qonağı təbrik edən Baş nazir Artur Rasizadə Azərbaycanla Gürcüstan arasında bütün sferalarda, o cümlədən hərbi-texniki əməkdaşlıq sahəsində ikitərəfli faydalı münasibətlərin daim inkişaf etdirilməsinin zəruriliyini vurğulayıb. Ölkələr arasında iqtisadi-ticarət və humanitar əlaqələrin mövcudluğunu yüksək qiymətləndirən Baş nazir xüsusən energetika və nəqliyyat sahələrində Gürcüstanla irimiqyaslı beynəlxalq layihələrdə birgə fəaliyyətin səmərəliliyini qeyd edib. Baş nazir hərbi əməkdaşlıq istiqamətində də oxşar qurumlar arasında münasibətlərin daim inkişaf etdirilməsinin müasir şəraitdə mühümlüyünə diqqəti yönəldib.

Yeni vəzifədə ölkəmizə ilk rəsmi səfərindən məmnun qaldığını bildirən Gürcüstanın Müdafiə naziri Levan İzoria Gürcüstan hökuməti rəhbərliyinin salamlarını Azərbaycanın Baş nazirinə çatdırıb. Bakıda keçirdiyi görüşlər barədə Baş nazirə ətraflı məlumat verən qonaq xüsusilə 2017-ci il üçün Müdafiə nazirlikləri arasında imzalanan ikitərəfli hərbi əməkdaşlıq planının önəmini qeyd edib, azərbaycanlı həmkarları ilə təcrübə mübadiləsinə böyük ehtiyac olduğunu deyib. Gürcüstanın Müdafiə naziri səfər müddətində nümayəndə heyətinə göstərilən yüksək diqqət və qonaqpərvərliyə görə minnətdarlığını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Azərbaycanın və Gürcüstanın Müdafiə nazirlikləri arasında 2017-ci il üçün əməkdaşlıq planı imzalanıb

*Dekabrın 16-da Azərbaycanın və Gürcüstanın Müdafiə nazirlikləri arasında 2017-ci il üçün əməkdaşlıq planı imzalanıb.*



Sənəd Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Müdafiə naziri Levan İzoria ilə keçirilən görüşü çərçivəsində imzalanıb.

Görüşdən əvvəl Gürcüstanın nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Qonaqlar, həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib.

Gürcüstanın Müdafiə naziri fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.



Azərbaycanın və Gürcüstanın Müdafiə nazirləri arasında əvvəlcə təkbətək, sonra isə geniş tərkibdə görüş keçirilib.

Qonaqları salamlayan general-polkovnik Zakir Həsənov gürcüstanlı həmkarını yeni təyinatı münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Ölkələrimizin hərbi əməkdaşlığının ikitərəfli və NATO çərçivəsində həyata keçirilən proqramlar, treninqlər vasitəsilə, eləcə də Azərbaycan-Türkiyə-Gürcüstan hərbi qurumları formatında aparıldığını xatırladan general-polkovnik Zakir Həsənov vurğulayıb ki, gələn ildə də ikitərəfli və üçtərəfli təlimlərin keçirilməsi planlaşdırılır.

Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlığın yüksək səviyyəsindən danışan general-polkovnik Zakir Həsənov bunun təkcə ölkələrimizin inkişafında deyil, həm də bütün regionda təhlükəsizliyin təmin edilməsində mühüm rol oynadığını vurğulayıb. Müdafiə naziri beynəlxalq təşkilatlarda Azərbaycanı dəstəklədiklərinə, respublikamızın ərazi bütövlüyünü, Dağlıq Qarabağı onun ayrılmaz tərkib hissəsi kimi tanıdıqlarına görə gürcü xalqına minnətdarlığını bildirərək vurğulayıb ki, Azərbaycan da Gürcüstanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir.

General-polkovnik Zakir Həsənov ölkələrimizin hərbi qurumları arasında 2017-ci il üçün əməkdaşlıq planının səmərəli tərəfdaşlığımızın möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini bildirib.



Azərbaycanın Müdafiə naziri görüşdə Ermənistanın regional sabitliyə əsas təhlükə yaratdığını, işğalçı ölkənin dövlət səviyyəsində daim separatizmi dəstəklədiyini diqqətə çatdırıb.

İlk rəsmi səfərini məhz Azərbaycana etməsindən məmnunluğunu bildirən L.İzoria bunun ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyəsinin bariz nümunəsi olduğunu vurğulayıb. Dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığını deyən Gürcüstanın Müdafiə naziri bu cür görüşlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından zəruriliyini xüsusi qeyd edib.

L.İzoria onu da bildirib ki, gələn ildən Gürcüstan da Azərbaycan ilə Türkiyə arasında keçirilən birgə hərbi təlimlərdə iştirak etməyə hazırdır.

Görüşdə Azərbaycan ilə Gürcüstan Müdafiə nazirlikləri arasında hərbi, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlığın perspektivləri, birgə hərbi təlimlərin keçirilməsinin imkanları, işçi görüşlərinin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Səfər dekabrın 17-dək davam edəcək.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar**
**Natiq İSAYEVİNDİR**

# Milli Məclisdə "Hərbi vəziyyət haqqında" yeni qanun layihəsi müzakirə edilib

*Dekabrın 16-da Milli Məclisin plenar iclasında "Hərbi vəziyyət haqqında" yeni qanun layihəsi birinci oxunuşda müzakirə edilib.*

AZƏRTAC xəbər verir ki, 5 fəsil, 27 maddədən ibarət qanun layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin birinci hissəsinin 8-ci bəndinə uyğun olaraq Azərbaycanın bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyətin elan və ləğv edilməsi, hərbi vəziyyətin qüvvədə olma müddətinin uzadılması, hərbi vəziyyət rejiminin təmin edilməsi qaydasını, cəbhəboyu zonada hərbi hissələrin yerləşdiyi ərazilərdə rejimin xüsusiyyətlərini, hərbi vəziyyət şəraitində fiziki və hüquqi şəxslərin hüquqlarının təminatını müəyyən edir.

Qanun layihəsi barədə Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verib. Bildirilib ki, hazırda qüvvədə olan 17 maddədən ibarət qanun 1994-cü ildə hazırlanıb. Bu gün bu qanun müvəffəqiyyətlə işləyir. Ancaq nəzərə almaq lazımdır ki, 1995-ci ildə biz ilk milli Konstitusiyamızı qəbul etmişik. Konstitusiyamızda da Azərbaycan Silahlı Qüvvələrinin statusu ilə bağlı xüsusi maddələr öz əksini tapıb. Eyni zamanda, hərbi doktrinanı, milli konsepsiyamızı, "Milli təhlükəsizlik haqqında" Qanunu qəbul etmişik. Bu kimi hərbi qanunların qəbulu və ya edilən dəyişikliklər, ümumiyyətlə, bugünkü vəziyyət yeni qanun layihəsinin hazırlanmasını tələb edirdi.

Yeni qanun layihəsi hazırlanarkən Azərbaycan Respublikasının Konstitusiyası, hərbi qanunvericilikdə mövcud olan bütün dəyişikliklər nəzərə alınıb.

Komitə sədri, həmçinin bildirib ki, Ermənistanın cəbhə xəttində təxribatlarının davam etməsi, yaranan gərginliklə paralel olaraq Azərbaycanın informasiya məkanında dezinformasiyalar yayılır. Bir sıra hallarda özündə hərbi sirr daşıyan məlumatların yayılması, düşmən diversantlarının cəbhə xəttini keçmək cəhdləri ölkənin informasiya məkanında və cəbhədə təhlükəsizliyin gücləndirilməsinin zəruri olduğunu göstərir. Bu baxımdan Prezident İlham Əliyevin təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında imzaladığı sərəncam milli təhlükəsizlik maraqlarına xidmət edir.

Qanun layihəsi müzakirələrdən sonra birinci oxunuşda qəbul edilib.

# Vətənə sədaqətli olacaqlarına söz verdilər





*Əlahiddə Ümumqoşun Orduda gizirlərin və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının 12-ci buraxılış mərasimi keçirilib.*

Tədbirdə əvvəlcə hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Mərasimdə məzunlar adından çıxış edən Bəhlul Allahverdiyev və Nurlan Quliyev torpaqlarımızı son nəfəsədək qoruyacaqlarına, verilən tapşırıqları məsuliyyət hissi ilə yerinə yetirəcəklərinə söz verdilər.

Zabitlərdən Mənsum Əhmədov çıxış edərək bildirdi ki, Əlahiddə Ümumqoşun Orduda bundan əvvəl təşkil olunan kursların məzunları hazırda peşəkar hərbi qulluqçu kimi öz vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. "İnanırıq ki, bu məzunlar da ən çətin tapşırıqları belə vaxtında, çevik və dəqiq yerinə yetirəcək, valideynlərinə və komandirlərinə hər zaman başucalığı gətirəcəklər."

Valideynlər adından çıxış edən Fərəc Qasımov həm sevinc, həm də qürur hissi ilə kursu müvəffəqiyyətlə bitirən məzunları təbrik edərək xidmətlərində uğurlar arzuladı.

Sonra Əlahiddə Ümumqoşun Ordu Komandanının təbriki şəxsi heyətə çatdırıldı. Bildirildi ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər bu gün ölkəmizin hər yerində olduğu kimi, Naxçıvanda da uğurla davam etdirilir. Bütün bunların nəticəsidir ki, ən müasir silah və texnikaya malik Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti istənilən döyüş tapşırığını yerinə yetirməyə, işğalçıları darmadağın etməyə qadirdir.

Kursu başa vuran məzunlara sertifikatlar təqdim edildi.

Müvafiq kursların birinciləri Vüqar Novruzov və Müzəffər Məmmədov yaş kötüklərinə buraxılış emblemlərini vurdular.

Məzunların tribuna önündən təntənəli keçidindən sonra xüsusi təyinatlı bölmənin nümunəvi çıxışları maraqla və alqışlarla qarşılandı.

Tədbirin sonunda məzunların bir neçəsi ilə həmsöhbət oldum. Onlardan Abbas Təbriz, Məmməd Kərimov, Elçin Rüstəmov, Əsgər Quliyev, Yusif Xudaverdiyev və başqaları sevincli, həyəcanlı və qürurlu olduqlarını, Vətənə bundan sonra da canla-başla xidmət edəcəklərini, verilən döyüş tapşırıqlarını peşəkar hərbçi kimi yerinə yetirəcəklərini bildirdilər. Məzunlardan Ramazan İmamverdili bildirdi ki, uşaqlıqdan əsgər olmaq istəmişəm. "Əsgərlik yaşım çatanda xidmətə yollandım. "N" hərbi hissəsində xidmət etdiyim müddətdə çalışdım ki, doğma Azərbaycanımıza sədaqətlə xidmət edim. Nümunəvi bir əsgər kimi xidmətimi başa vuraraq ordu sıralarında qalmaq qərarına gəldim və gizir hazırlığı kurslarına cəlb edildim. Kurs zamanı bizə öyrədilənləri yüksək peşəkarlıqla mənimsəməyə çalışdım. Artıq bu gündən ordu sıralarında gizir kimi xidmətə başlayıram. Bundan sonra da peşəkar və nümunəvi hərbi qulluqçu olmağa çalışacağam."

Gənclərimizin peşəkar hərbçi kimi yetişmələrində zabitlərimizin böyük zəhməti var. Həmin zabitlərdən Elxan Quliyev, Samir Aslanov, Museyib Qasımov, Orxan Məlikov, Cavidan Xəlilov, Tural Abuzərov, Ramin Quliyev, Şahin Abbasov, Məsim Səfərov və başqaları bilik, bacarıq və təcrübələrini qəlbi Vətən eşqi ilə döyünən gənclərimizə aşılayırlar. Buna görə də, şəxsi heyətin mənəvi-psixoloji fiziki və döyüş hazırlığı, peşəkarlıq səviyyəsi gündən-günə artır.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Aydın ORUCOVUNDUR**

# "Aprel döyüşlərinin nəticələri Azərbaycan Ordusunun qüdrətinin göstəricisidir"

*Azərbaycanın İstanbuldakı baş konsulu Məsim Hacıyev Türkiyə Silahlı Qüvvələrinin Birinci Ordu komandanı ordu generalı Musa Avseverlə görüşüb.*

Görüşdə M.Avsever Azərbaycan və Türkiyə arasında olan dostluq və qardaşlıq münasibətlərinin qorunmasının və daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb. Ümummilli lider Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamını xatırladan ordu generalı diqqətə çatdırıb ki, eyni tarixə, kökə, dilə, dinə və ənənələrə mənsub olan iki qardaş xalq arasında əlaqələrin qorunması və inkişafı tarixi əhəmiyyət daşıyır.

Azərbaycanın dövlət müstəqilliyini bərpa edəndən sonra hərbi və müdafiə sənayesi sahəsində əldə etdiyi uğurları yüksək qiymətləndirən M.Avsever Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmamasından narahatlığını ifadə edib. Bildirib ki, aprel döyüşlərində işğal altındakı torpaqların bir qisminin düşməndən azad edilməsi Azərbaycan Ordusunun şücaətinin və qüdrətinin göstəricisidir.

M.Hacıyev bir neçə gün əvvəl İstanbulda törədilən terror aktı nəticəsində şəhid olanlara Allahdan rəhmət, yaralılara şəfa diləyib. Baş konsul diqqətə çatdırıb ki, Türkiyədə baş verən istənilən xoşagəlməz hadisə, o cümlədən terror aktları Azərbaycanda böyük sıxıntı ilə qarşılanır. Biz erməni terrorizmindən əziyyət çəkən ölkəyik. Azərbaycan bütün məsələlərdə, o cümlədən terrorçuluqla mübarizədə qardaş Türkiyənin yanındadır.

**AZƏRTAC**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***16 dekabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 31 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şuraabad, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# "Torpaqlarımızı işğaldan azad edəcəyik"



*Əsgər Elvin Məhərrəmov bir neçə aydır ki, hərbi xidmətdədir. Qısa müddətdə komandirlərin, döyüşçü yoldaşlarının hörmətini qazanıb. Kapitan Rövşən Qəribov nümunəvi xidmət edən əsgərlərdən söz düşəndə ilk olaraq Elvinin adını çəkdi. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu ilə döyüş postunda görüşdüm. Görkəmcə şən və gümrah görünən Vətən müdafiəçisi daşıdığı silahdan mükəmməl istifadə etməyi bacarır.*

Döyüş postu düşmənə yaxın məsafədə yerləşir. Burada xidmət etməyin özünəməxsus çətinlikləri var. Belə şəraitdə döyüşçülərdən daim ayıq-sayıq olmaq tələb olunur. Səngərin o üzü düşməndi. Məzğaldan yağıların mövqeləri aydın görünür. Düşmən döyüş postlarımıza basqı etməyə məqam axtarır. Sayıq oğullarımız isə hər dəfə yağıların niyyətini vaxtında aşkar edib, onların cavabını verirlər.

Əsgər E.Məhərrəmov da düşməndən təhlükə hiss edildikdə adına təhkim edilən silahı götürüb dərhal mövqe tutur və döyüş əmrini gözləyir. Elvin yenə səngərdə atəş mövqeyindədi.

- Yağılar günün istənilən vaxtı mövqelərimizi işğal etməyə cəhd edə bilər, - deyə gənc döyüşçü bildirir. - Dairəvi müdafiəni təşkil etmişik. Tez-tez müxtəlif istiqamətlərə çıxmaqla daha etibarlı müdafiəmizə zəmin yaradırıq. Düşmən hansı istiqamətdə hücum edərsə, onun qarşısını almağa qadirik. Bunun üçün daim qabaqlayıcı tədbirlər görürük. İndi də tutduğum mövqe düşmənin sağ cinahdan hücumunun qarşısını almaq üçün təşkil olunub.

Döyüşçü ilə tanışlıqdan məlum oldu ki, Tərtər rayonunda anadan olub. Bu işıqlı dünyada özünü dərk edəndən top, güllə səsləri eşidib. Ermənilər tərəfindən torpaqlarımızın 20 faizinin işğal edildiyini başa düşən gündən Elvin Məhərrəmovda da düşmənə qisas hissi baş qaldırıb. Hələ orta məktəbdə oxuyanda gələcəkdə hərbçi olacağını düşünüb. Müddətli həqiqi hərbi xidmətdən sonra ordu sıralarına qayıtmaq qərarına gəlib. Artilleriya ixtisası üzrə müvafiq kursu bitirəndən sonra ön cəbhədə xidmətə başlayıb.

Təcrübəli döyüşçü Vətəni qorumaqdan, onun müdafiəsində dayanmaqdan qürur duyur. Deyir ki, müharibə başlasa, ölkəmizin ərazi bütövlüyü ordumuzun gücü ilə bərpa olunacaq.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanın hərb tarixinə qiymətli töhfə

## "Azərbaycanın tarixi silahları" kitabının təqdimat mərasimi keçirilib




*Dekabrın 15-də Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanasında nəfis şəkildə çap edilmiş "Azərbaycanın tarixi silahları" kitabının təqdimat mərasimi keçirilib.*

Rus dilində işıq üzü görmüş tədqiqat əsəri Azərbaycan Respublikasının Müdafiə Nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov, Adil Minbaşı, Azər Məmmədov və Fuad Cavadovdan ibarət müəlliflər heyəti tərəfindən ərsəyə gətirilib. Hərb tariximizin öyrənilməsi baxımından dərin maraq kəsb edən nəşrin təqdimatında Azərbaycan Respublikası Müdafiə, Mədəniyyət və Turizm nazirliklərinin nümayəndələri, ölkəmizin tanınmış elm və mədəniyyət xadimləri, Milli Məclisin deputatları və kitab həvəskarları iştirak edirdilər. Kitabxananın konfrans zalında rəflərə Azərbaycanın hərb tarixinə həsr olunmuş və müxtəlif illərdə nəşr edilmiş kitablar düzülmüşdü.

Mərasimi kitabxananın direktoru professor Kərim Tahirov açaraq uzun illər aparılmış araşdırmaların nəticəsi kimi işıq üzü görmüş "Azərbaycanın tarixi silahları" kitabının elmi-kütləvi məziyyətlərindən danışdı və çıxış üçün sözü Azərbaycan Respublikasının Mədəniyyət və Turizm nazirinin müavini Ədalət Vəliyevə verdi.

Nazir müavini son illərdə Mədəniyyət və Turizm Nazirliyi xəttilə Azərbaycan mədəniyyətinə həsr edilmiş bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərin, o cümlədən kitab təqdimatlarının keçirildiyini söylədi. Bildirdi ki, uzun illərin araşdırmalarının məhsulu olan "Azərbaycanın tarixi silahları" kitabı xalqımızın şərəfli keçmişindən xəbər verir. Onun sözlərinə görə, nazirlik tərəfindən kitab gələcəkdə xarici dillərə tərcümə ediləcək və dünya ölkələrində yayımlanacaq.

Tədqiqatçı alim, ehtiyatda olan polkovnik Mehman Süleymanov kitabın dəyərli bir vəsait olduğunu söylədi. Azərbaycan hərb tarixinin son illər araşdırıldığını bildirən alim nəşrdə qədim zamanlardan ölkəmizdə istehsal edilən silahlarla bağlı zəngin materialın toplandığını dedi. "Kitabda əksini tapmış, xalqımızın maddi mədəniyyət nümunələri kimi tədqiq edilən silah nümunələri Azərbaycanın şərəfli tarixə malik olduğunu təkzib olunmaz dəlillərlə göstərir. "Azərbaycanın tarixi silahları" kitabı bir daha göstərir ki, Azərbaycan tarixən silah istehsalı mərkəzlərindən olub."



Mehman Süleymanov təəssüf hissilə vurğuladı ki, Azərbaycan sənətkarlarının hazırladığı tarixi-mədəni əhəmiyyətə malik bu silahlar dünyanın müxtəlif yerlərində bəzən başqa millətlərin yaraq nümunələri kimi təqdim edilir. "Azərbaycanın tarixi silahları" kitabının nəşri, əslində, öz mədəniyyətimizə və dəyərlərimizə sahib çıxmaq deməkdir.

Tarixçi alim həmçinin xarici muzeylərdə nümayiş etdirilən silahlarımızın lazımınca araşdırılmasının, onların pasportlaşdırılmasının vacibliyini də diqqətə çatdırdı. "Bu gün Azərbaycanın hərb tarixinin araşdırılmasına və öyrənilməsinə Müdafiə Nazirliyinin rəhbərliyi böyük diqqət yetirir və tədqiqatçıların fəaliyyəti üçün lazımi şərait yaradılıb."

Milli Məclisin deputatı, yazıçı-publisist Aqil Abbas da kitab barədə ürək sözlərini söylədi, bu gün həmin nəşrin böyük əhəmiyyətə malik olduğunu bildirdi. O, kitabın dilimizə tərcümə edilərək kütləvi tirajla nəşr edilməsini təklif etdi.

Tanınmış naşir və tədqiqatçı, "Azərbaycanın tarixi silahları" kitabının müəlliflərindən biri Adil Minbaşı nəşrin hazırlanması ilə bağlı düşüncələrini tədbir iştirakçılarına çatdırdı. "Azərbaycan tarixini, müəllifin sözlərinə görə, daha çox rusdilli "tədqiqatçılar", xüsusilə məlum millətin nümayəndələri təhrif etməyə çalışırlar. Kitabın rus dilində çap edilməsinin səbəbi həmin üzdəniraq alimlərə tutarlı cavab vermək istəyindən irəli gəlib. Gələcəkdə əsər başqa dillərə də çap edilərək yayılacaq."

Kitabda yer almış silahlar bizim tətbiqi mədəniyyət nümunələrilə həmahəngdir. Həmin silahların üzərindəki naxış və ornamentlərə xalçalarımızda, digər tətbiqi sənət əsərlərində də rast gəlinir və bütün bunlar həmin silahların Azərbaycan xalqına mənsub olduğunu göstərir.

AMEA-nın Tarix və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə elmləri doktoru Xaliyəddin Xəlili, Azəri Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı, şairə Zəminə Xınalı gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, tarixi keçmişimizin öyrənilməsi baxımından kitabı yüksək qiymətləndirdilər və müəlliflərə təşəkkürlərini bildirdilər.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Kamandar QULİYEVİNDİR**

# Tibb Baş İdarəsində ABŞ nümayəndə heyəti ilə görüş keçirilib





*Dekabrın 15-də Tibb Baş İdarəsində ABŞ Müdafiə Departamentinin Təhlükənin Azaldılması ofisinin (TAMA) direktoru xanım Elizabet Corcun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.*

Hərbi təbabət sahəsində hazırkı əməkdaşlığın və perspektivlərin müzakirə olunduğu görüşdə Azərbaycan ilə ABŞ arasında Birgə Bioloji Əməkdaşlıq proqramının icrası yüksək qiymətləndirilib.

Tibb Baş İdarəsinin rəisi tibb xidməti general-mayoru Natiq Əliyev əməkdaşlığın hazırkı səviyyəsindən razılığını bildirib. Əməkdaşlıq çərçivəsində keçirilən treninqlərin vacibliyindən danışan idarə rəisi biotəhlükəsizlik və biomüdafiə sahələrində də təcrübə mübadiləsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti,**
**fotolar**
**çavuş**
**Vüsal HƏMİDOVUNDUR**

# Dmitri Savelyev: Azərbaycan Dağlıq Qarabağın işğalı ilə heç vaxt barışmayacaq

Rusiya parlamentinin deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev Rusiya Federal Məclisinin orqanı olan "Parlamentskaya qazeta"nın mətbuat mərkəzində keçirilən "dəyirmi masa"da bildirib ki, Dağlıq Qarabağ münaqişəsi keçmiş SSRİ dönəmindən qalan ağrılı bəladır.

"Rusiya-Azərbaycan münasibətləri: 25 il dostluq və qarşılıqlı əməkdaşlıq" mövzusunda "dəyirmi masa"da çıxış edən D.Savelyev vurğulayıb ki, bu münaqişə heç kimə, heç Ermənistan xalqına da xeyir gətirmir. O deyib: "Ermənistanın təcavüzü nəticəsində əzəli Azərbaycan torpaqları olan Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayon işğal edilib. Azərbaycan Dağlıq Qarabağın işğalı ilə heç zaman barışmayacaq. Rusiya ATƏT-in Minsk Qrupunun həmsədri kimi bu problemin həllində öz vasitəçilik səylərini gücləndirməlidir".

Rusiya cəmiyyətində Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatın dolğun olmadığını bildirən D.Savelyev deyib: "Təsəvvür edin ki, sizin ikiotaqlı mənziliniz var və qonşunuz bu mənzilin bir otağını sizin əlinizdən alıb. Bu halda siz nə etməlisiniz? Bu halda Azərbaycan xalqı nə etməlidir?"

Dostluq qrupunun rəhbəri Azərbaycanın Rusiya ilə Türkiyə arasında əlaqələrin möhkəmlənməsində vasitəçi rolunu qeyd edərək vurğulayıb ki, Rusiya Liberal-Demokrat Partiyasının lideri Vladimir Jirinovskinin Türkiyəyə səfəri zamanı Rusiya-Türkiyə-Azərbaycan parlamentlərarası əlaqələr qrupunun yaradılması məsələsi müzakirə olunub. Qurumun ilk iclasının Bakıda keçirilməsi nəzərdə tutulub.

**AZƏRTAC**

Hərbi təhsil

# Yüksək biliyə malik zabit kadrları hazırlanır

*Hərbçiləri çox vaxt öz ölkəsinin ikiqat vətəndaşları adlandırırlar. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın hərbi ənənələrinin qorunmasına, gənclərimizin hərbə marağının gücləndirilməsinə ciddi diqqət yetirirdi. "Zabit peşəsi ən şərəfli peşədir. Bu peşəni seçənlərə xalqımız daim minnətdar olacaqdır." Bəli, zabit peşəsi ən müqəddəs və vacib peşələrdən biridir, çünki bu peşənin əsas mahiyyəti Vətəni qorumaqdan ibarətdir.*

Ümummilli lider Heydər ƏLİYEV:

*Zabit peşəsi ən şərəfli peşədir. Bu peşəni seçənlərə xalqımız daim minnətdar olacaqdır.*



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbindəyəm. İlk öncə məktəb rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Mikayıl Hüseynovla söhbətimiz oldu. Zabit bildirdi ki, bu peşələrə üz tutan gənclərimizin sayı ilbəil artır. "Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji siyasi kursu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna diqqəti, qayğısı ilə hərbi qüdrətimiz güclənir, ürəyi Vətən, millət, bayraq, torpaq sevgisi ilə döyünən gənclər zabit peşəsinə üstünlük verirlər. Məktəbimizin kollektivi üçün əsas məqsəd Silahlı Qüvvələrimizi bacarıqlı, yüksək biliyə malik zabit kadrları ilə təmin etməkdir."

Söhbətimizi bitirib hərbi təhsil ocağı ilə yaxından tanış oluruq.

"Döyüşün mühəndis təminatı" fənnini tədris edən ehtiyatda olan polkovnik-leytenant Eldar Qarayevin dərsində iştirak edirik. 1992-ci ildən taleyini orduya həsr etmiş Eldar müəllim "Mühəndis maneələri" fənnini də tədris edir. Ulu öndər Heydər Əliyevin çağırışı ilə 1993-cü ildə döyüşlərə atılan zabit bir müddətdən sonra hərbi məktəbə göndərilir. Bu gün kursantların arasında generallar, döyüş yolu keçmiş zabitlər var. Zabit kadrlarının hazırlanmasında dünyanın inkişaf etmiş ordularının təcrübələrinə önəm verən müəllim istehkam peşəsini seçən kursantlara daim məsuliyyətli, diqqətli olmağın vacibliyini tövsiyə edir. "Çətin ixtisas sahibləri olan istehkamçı zabitlər döyüşün təminatı üzrə lazımi bilikləri və bacarıqları ətraflı öyrənirlər. Döyüş vaxtı öndə istehkamçılar gedir. Onlar keçidləri, yolları minalardan təmizləyirlər. Xalqımıza qələbə sevinci yaşadan aprel döyüşlərində mühəndis qoşunları şəxsi heyətinin də bacarığı təsdiqləndi."



Gələcəyin zabitləri olaraq Abbas Yusifovun, Pərviz Nəhmətovun, Adil Cumayevin və digər kursantların hazırlıqlı, yeni bilikləri öyrənmək üçün çox həvəsli olduqlarını dərsin gedişində hiss edirəm.

"Avtomatlaşdırılmış idarəetmə sistemləri" fənnini 2002-ci ildən tədris edən ehtiyatda olan zabit Vladik Mehdiyev isə bildirdi ki, məqsədimiz texniki vasitələrdən istifadə etməklə obyektlərin vəziyyətləri haqqında informasiyanın alınması, ötürülməsi, saxlanılması və axtarılması üçün imkanları təmin etməkdir. "Çöl məşğələlərində kursantların nəzəri biliklərini praktik vərdişlərlə möhkəmləndirilməsinə nail oluruq."

Raket və Artilleriya Qoşunları kafedrasında tədris üçün dəyərli vasitələrlə zəngin olan dərs otaqları var ki, bunlar da kursantların hərbi biliklərı mənimsəməsində böyük önəm daşıyır. "Artilleriya atışı və atəşin idarə edilməsi" fənnini tədris edən ehtiyatda olan polkovnik-leytenant Nazim Hüseynov da döyüş yolu keçib. Sadəcə tədrislə kifayətlənmir, həm də təcrübəsini kursantlarıyla bölüşür.

- Kompüter sistemlərinin davamlı inkişafı bu sahədə uğurlara yol açır. Döyüş şəraitində hədəflərin müxtəlif üsullarla məhv edilməsində kompüter texnikasından geniş istifadə edilir. Bizim şüarımız ilk atəşdə hədəfi məhv etməkdir, - Nazim müəllim deyir.

Polkovnik-leytenant Bəhram Musayev peşəkar hərbçilərdəndir. Ukraynada hərbi məktəb bitirib. Döyüş yolu keçmiş zabit 2014-cü ildən burada "Artilleriyanın atəş bölmələrinin döyüş işi" fənnini tədris edir. Atəş mövqelərinin tutulması, artilleriya sistemlərinin atışa hazırlanması, döyüş vəziyyətinə gətirilməsi və s. xüsusiyyətləri kursantlara böyük həvəslə izah edir. Kursantlardan Məzahir Bunyatovun və Roman Talıbzadənin mövzu ilə bağlı suallarına ətraflı cavab verir.



Humanitar və sosial fənlər kafedrasının rəisi polkovnik Adil Abdullayevlə birlikdə "Silahlı Qüvvələrdə tərbiyə işi" dərsini izləyirik. Fənni tədris edən polkovnik-leytenant Elçin Salayev də bir müddət cəbhə bölgəsində xidmət edib. 2014-cü ildən hərbi təhsil ocağında xidmət edən zabit bölüklərin şəxsi heyətlə iş üzrə komandir müavinləri vəzifələrini tutacaq kursantlara "Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsində komandir-rəis heyətinin rolu" mövzusunu ətraflı izah edir. Kursantların bütün diqqəti müəllimdədir. Bu kursantlar artıq gələn ildən zabit kimi xidmətə başlayacaqlar.

"Azərbaycan tarixi" fənnini tədris edən baş müəllim Şahvəli Məmmədov isə söhbətimizdə deyir ki, hər kəs öz xalqının tarixini dərindən bilməlidir. Kursantlar təcrübəli müəllimin tədris etdiyi fənnə böyük maraq göstərirlər. - Milli ideologiyanı geniş təbliğ etmək üçün tariximizin öyrənilməsinə ciddi diqqət yetiririk, - deyə Şahvəli müəllim bildirir.

Hərbi təhsil ocağında bir çox kursantlarla söhbətləşməyə, onları müqəddəs zabit peşəsinə həvəsləndirən cəhətləri öyrənməyə çalışıram. Öyrənirəm ki, əksər gənclərin ailələrində olan mühit onları bu sənəti seçməyə ruhlandırıb. Ən başlıcası isə Vətən sevgisi, torpaqlarımızın bir hissəsinin işğalda olması ilə əlaqədar düşmənə intiqam hissi onların peşə seçimində əsas rola malikdir. Əhməd Əhmədli, Sunay Əsgərov, Kənan Məlikov, Yaqub Nəcəfli, Vüqar Əzizov, Orxan Ağayev, Elvin Ələsgərov, Nihat Zəkizadə kimi vətənpərvər gənclərimizə güvəncim böyükdür. İnanıram ki, onlar Silahlı Qüvvələrimizin təcrübəli zabitləri arasında yer tutacaqlar.

...Dekabr ayında sanki yaz havasıdır. Günəşin şüaları mavi Xəzərdə əks olunur. Düşünürəm ki, bu təhsil ocağının kollektivi də üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gələrək, Vətənimizin gələcək günlərinin aydın səmalı, işıqlı olacağında az rol oynamır...

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

Ordu və cəmiyyət

# "Biz də Vətənin əsgəriyik"

*Vətən, Torpaq heysiyyatı çəkən ziyalılarımız bütün zamanlarda sözün gücünə söykənərək alovlu çıxışları ilə xalqımızın azadlıq mücadiləsi tarixində silinməz izlər qoyublar... Xalqımızın belə vətənsevər ziyalılarından biri də görkəmli şair-dramaturq Nəriman Həsənzadədir. Nəriman müəllimlə söhbətimizin əsas mövzusu oktyabrın 27-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun respublikamızın tanınmış şair və yazıçıları ilə, ziyalılarla görüşündən sonrakı təəssüratlarını, ordumuzla bağlı fikirlərini öyrənmək idi. Və arzuladıq ki, ən xoş xatirələrini oxucularımızla bölüşüb ədəbi yaradıcılığından söhbət açsın.*

***- Nəriman müəllim, ötən əsrin 50-ci illərinə qayıdaq. Hərbi xidmətdə olduğunuz illəri xatırlayaq.***

- Səmimi deyirəm, bəlkə də o dövrdə gənclərin arasında ən yaşlı əsgər mən idim. Gəncə Pedaqoji İnstitutunu bitirmişdim. Bir gün məni o zaman Çaparidze rayonuna (indiki Yasamal rayonu) çağırdılar. Hərbi komissar rus idi. Əslində, ananın bir övladı var idisə, onu əsgər aparmırdılar. Çünki ana təkdi. Lakin heç kim qanuna baxmadı, əksinə, mən daha da uzaqda İrkutski şəhərində hərbi xidmət keçməli idim. Dahi şairimiz Səməd Vurğunun yanına getdim. O da respublikanın hərbi komissarı polkovnik Xavər Əliyevə zəng etdi. Böyük şairimizin xahişi ilə məni Salyan kazarmasına saldılar.

***- Deyəsən, o zaman köməyinizə görkəmli şairlərimiz Rəsul Rza və Nigar Rəfibəyli də çatmışdılar.***

- Elədir. Ümumiyyətlə, həyatımda böyük əməyi olan xeyirxah, gözəl insanların adlarını çəkib onlar haqqında çox danışmışam. Anam dünyasını dəyişən gün məni hərbi hissədən buraxmadılar, qaçıb getdim. Hərbi Tribunal altı il iş kəsməli idi, üç il də əsgəri xidmət doqquz il. Bəxtim burada da üzümə güldü. Bir gün hərbi hissəmizə Rəsul Rza, Nigar Rəfibəyli, Mikayıl Rəfili, Nəbi Xəzri, İosif Borotovski görüşə gəlmişdilər. Orada Nigar xanım məni qəmgin görüb soruşdu ki, niyə belə fikirlisən? Rəsul müəllim də maraqlandı. Vəziyyəti danışdım. Bu gün-sabah məhkəmə olmalı idi. Rəsul Rza və Nigar xanım hərbi hissəmizin komandiri general-mayor Mahmud Əbilovun qəbuluna getdilər. General Əbilov o zaman məni bağışladı. Allah onlara rəhmət eləsin.

***- Hərbi xidmətdən sonra həyatınızda hansı dəyişikliklər oldu?***

- Məni Moskvaya Maksim Qorki adına Ədəbiyyat İnstitutunda ali ədəbiyyat kursuna oxumağa göndərdilər. Kursu başa vurduqdan sonra həmin instituta daxil olub oranı da bitirdim. Mərhum şairimiz Xəlil Rza ilə eyni kursda oxuyurduq, eyni yataqxanada və bir otaqda qalırdıq. Moskvada oxuyarkən bizi hərbi hissələrə aparırdılar. Orada şeirlər oxuyurduq. İnanın sözümün həqiqətinə, o vaxtlar fikirləşirdim ki, müstəqil dövlətimiz, ordumuz olsun, mən də hərbçilərimiz qarşısında ana dilimdə şeirlərimi oxuyum.

*Redaksiyamızın qonağı Əməkdar incəsənət xadimi, Xalq şairi, Prezidentin fərdi təqaüdçüsü, "Şöhrət" və "Şərəf" ordenli şairimiz Nəriman Həsənzadədir.*



***- Görkəmli yazıçı, tanınmış pedaqoq alim professor Mir Cəlal Paşayev də sizə ata qayğısı göstərib.***

- Yaxşılıqlar unudulmur. Məhz onun köməkliyi ilə universitetdə aspiranturaya qəbul olundum. Sonra yaradıcılıq fəaliyyətim başladı. Mən Mir Cəlal müəllimin ailəsində, ziyalı ocağında yetişdim. Onu mənəvi bir ata kimi bu gün də xatırlayıram.

***- Nəriman müəllim, Ulu Öndərlə ilk görüşünüz nə vaxt olub?***

- Böyük tarixi şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyevlə görüşüm bütün həyatımı dəyişdirdi. O zaman Ulu Öndər təhlükəsizlik orqanlarında çalışırdı. Xalqımızın böyük oğlu Nəriman Nərimanov haqqında əsər yazmaq istədiyimi ona bildirəndə çox sevindi. Arxiv sənədləri ilə işləməyimə köməklik göstərməsini xahiş etdim. O vaxt Nərimanova aid arxiv materialları gizlədilirdi. Lakin Ulu Öndərimizin sayəsində məqsədimə nail oldum. İllər sonra Ulu Öndərimiz Azərbaycanın birinci katibi olduğu dövrdə Akademik Milli Dram Teatrında Nəriman Nərimanova həsr etdiyim "Bütün Şərq bilsin" pyesinin tamaşasına gəldi. Tamaşa yüksək alqışlarla qarşılandı...

Bu gündən dünənə baxanda, çox aydın hiss edirik ki, o böyük şəxsiyyət, müxtəlif dövrlərdə cəsarət göstərirdi, bizi də cəsarətli olmağa ruhlandırırdı. O, Prometey kimi insanlara işıq, nur paylasa da, özü işıq kimi yanır, nurunu heç kəsdən əsirgəmirdi. Biz dahi rəhbərimizin işıqlandırdığı yolun yolçularıyıq. Qarlı qış günündə böyük şairimiz Vaqifin abidəsinin açılışına gedəndə də o, xalqımızın sabahını, xoşbəxt gələcəyini düşünürdü. Onunla həmin tarixi görüşdən sonra "Xarı bülbül" poemasını yazdım.

*"Gedək İsa bulağına,*
*Çıxaq Qırxqız yaylağına..."*
*Azərbaycan qoy and içsin*
*Azərbaycan torpağına.*

***- Fərqli ictimai quruluşda yazdığınız "Atabəylər" mənzum pyesinizdə son misralarınız sanki bu günümüzün, sabahımızın reallıqlarını aktuallaşdırır: "Millətin şüuru oyansın gərək, Qorusun Vətəni gözbəbəyi tək."***

- Hər kəs Vətənin müdafiəsinə hazır olmalıdır. Yağı düşmənin ayağı torpaqlarımızdan çəkilməlidir. Gecə-gündüz səngərdə keşik çəkən əsgərlərimizin yanında olmalıyıq. Onları şeirlərimizlə, söhbətimizlə igidlik, qəhrəmanlıq göstərməyə ruhlandırmalıyıq. Əgər ulu öndər Heydər Əliyev ahıl çağlarında səngərlərə gedib əsgərlərlə yanaşı dayanırdısa, bəs bu ənənəni biz niyə davam etdirməyək?

***- Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu yaxınlarda bir qrup yazıçı, şairlə görüşdü. Təəssüratlarınızı öyrənmək maraqlı olardı?***

- Cənab nazirlə görüşümüz çox səmimi alındı. "Dəyirmi masa"da geniş söhbətlər apardıq. Burada Yazıçılar Birliyinin sədri, katibləri, Ağsaqqallar Şurasının üzvləri, başqa qələm dostlarımız danışdılar. Zakir müəllim bizi diqqətlə dinləyəndən sonra özü danışdı. Ordumuzun bugünkü inkişafına həsr edilən qısametrajlı filmə tamaşa etdik. Müdafiə nazirinin çörəyini əsgərlə yarı bölməsi qürurverici haldır. Aprel döyüşlərinə həsr etdiyim "Salam, ay bizim dağlar" şeirim iyulun 2-də "Ədəbiyyat" qəzetində dərc olunmuşdu. Qəzetimizin bu sayını ona verəndə dedi ki, artıq oxumuşam o şeiri. Generalımızın ədəbi mühitdən xəbərdar olmağına heyran qaldım. Belə addımlar hər bir əsgərə, hər bir zabitə nümunədir. Qərara gəldik ki, hərbi hissələrimizdə kitabxana yaradaq. Zabit, əsgər asudə vaxtında o kitabları götürüb oxusun. Hər bir şair və yazıçı öz imzasıyla kitablarını həmin kitabxanalara göndərəcək. Bu kampaniya xarakteri daşımayacaq, daimi olacaq. Orduyla ədəbi mühit birləşəndə əsgərin döyüş əzmi, ruh yüksəkliyi daha da artır. Birinci ruh yüksəkliyi olmalıdır. Ona görə deyirlər ki, ruh silahdan güclüdür. Bu gün Prezident, Ali Baş Komandan İlham Əliyev səngərdə Vətənin keşiyində dayanan əsgərlərin yanındadır. Bəs biz niyə olmayaq? Biz də Vətənin əsgəriyik.

***- Hərb mövzusu dünya klassik ədəbiyyatının da ana xəttini təşkil edib və bütün dövrlərdə aktual olub.***

- Hansı ölkənin torpağında müharibə gedirsə, o ölkənin ədəbiyyatında mütləq müharibə mövzusu olmalıdır. Döyüşlərdə qəhrəmanlıq göstərən sərkərdələrin obrazları əfsanələşdirilir. Hələ eradan əvvəl antik dövrün dahi dramaturqları Esxil, Sofokl və Evripit müharibədə olmuşdular. Böyük dramaturq Esxil müharibə mövzusunda "Zəncirlənmiş Prometey" və "Farslar" pyeslərini yazmışdı. Marafon döyüşlərində ağır yaralanan Esxil yazırdı ki, məni xərəkdə gətirdilər. Mən Vətən naminə döyüşdə yaralandım.

Homer yunanlarla troyalıların müharibəsindən yazırdı. Onun dahiyanə "İliada", "Odisseya" əsərlərinin mövzusu da müharibə mövzusu idi. Dünyanı fəth eləyən Makedoniyalı İskəndər haqqında 200-dən artıq əsər yazılıb. Rus yazıçılarının əksəriyyətinin yaradıcılığında hərb mövzusu əsas yer tutur. Mixail Lermontov, Aleksandr Puşkin, Lev Tolstoy hərb mövzusuna üstünlük vermişlər. Müharibə mövzusu təkcə döyüşü canlandırmaqdan ibarət deyil, burada insanın mənəviyyatı önə çəkilir. Böyük rus şairi Aleksandr Puşkin 1829-cu ildə rus-türk müharibəsi zamanı Qarabağ atlıları ilə, Şirvan polkunun əsgərlərilə görüşdən sonra deyib ki, mən Qafqaz oğullarının epopeyasını yazacam. O cəbhədə Fərhad bəyin, Fərəculla bəyin şəkillərini çəkir. Feldmarşal Paskeviç Puşkinin bu görüşlərinə qısqanır və onun Qafqaz səfərindən yarımçıq qayıtmasına səbəb olur. Bunlar tarixi faktlardır.

***- Bakının xilaskarı, türk xalqının böyük oğlu Nuru Paşanı da vəsf etmisiniz...***

- 1918-ci ildə Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa Bakını bolşevik-daşnak birləşmələrindən azad etməyə gələndə mesenat Hacı Zeynalabdin Tağıyev bütün orduya hərbi geyim tikdirir. Əsgər hərbi geyimdə artıq xilaskardır. Bu, psixoloji təsirdir. Bir poemam var, xilaskar ordunun komandanına həsr edirəm:

*"Nuru Paşa Türkiyədən,*
*Qarsdan gəlir,*
*Azərbaycan deyə-deyə*
*yaralanmış aslan gəlir".*

***- Aprel döyüşlərini "Salam, ay bizim dağlar" şeirinizdə tərənnüm edirsiniz.***

*- Millət qalxıb ayağa,*
*And içibdi torpağa,*
*Gəlirik Qarabağa,*
*Salam, ay bizim dağlar.*

Aprel zəfəri haqqın zəfəridir. Biz ermənilərin torpağını işğal etməmişik. Onlar tarixi torpaqlarımıza sahib çıxmaq istəyirlər. Bu gün Azərbaycan Ordusu öz tarixini yazır. Ümummilli liderimiz Heydər Əliyevin yaratdığı müasir Azərbaycan Ordusu onun layiqli davamçısı Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin sayəsində daha da inkişaf edir. Müdafiə naziri haqlı olaraq dedi ki, bizim ordu ona görə güclüdür ki, cənab Prezidetimiz orduya xüsusi diqqət ayırır.

Aprel döyüşləri onu göstərdi ki, xalq Prezidentinin, Ali Baş Komandanının ətrafında sıx birləşib. Müharibə gedən ölkədə söz bir olmalıdır. Söz yalnız Vətən sözü olmalıdır. Aprel döyüşləri tarixi bir mərhələdir. Ulu Öndərimiz deyirdi ki, Azərbaycan dünyaya günəş tək doğacaq. Bəli, bu gün bizim güclü Prezidentimiz, Ali Baş Komandanımız və güclü ordumuz var. Aprel döyüşləri bunu dünya qarşısında bir daha təsdiq elədi.

***- Qarabağ mövzusu şair və yazıçılarımızın yaradıcılığında nə dərəcədə yer tutub?***

Azərbaycanın şair və yazıçıları heç vaxt Qarabağ mövzusundan kənarda qalmayıb. Xəlil Rzanın, Qaçay Köçərlinin, Famil Mehdinin övladları Qarabağ döyüşlərində şəhid oldular. Qarabağ dərdi bizim də içimizdədir. Bu mövzuda yazılan əsərləri sadəcə sistemləşdirmək lazımdır. Bəlkə də onlar ayrıca çap olunmalıdır. Mənim yaradıcılığıma gəldikdə isə bu mövzuda çoxlu şeirlərim, poemalarım, silsilə əsərlərim və bayatılarım var. Yeddi cildliyimdə hamısı çap olunub. "Qarabağdan gələn var" poemam elə bu müharibənin ağrıacısını özündə əks etdirir.

***- Nəriman müəllim, söhbətimizin sonunda ənənəvi bir sual: ordumuzun əsgər və zabitlərinə arzularınız...***

Tanrı onları qorusun. Tezliklə Böyük Qələbənin sevincini yaşayacağıq. Xankəndidə, Şuşada yenə də şeir məclisləri qurulacaq, qələbə ruhlu şeirlərimiz orada səslənəcək.

***- Maraqlı və səmimi söhbətinizə görə çox sağ olun.***

**Müsahibəni apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilir

*Ankara şəhərində Azərbaycan-Türkiyə 9-cu Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iclasda 2017-ci ildə həyata keçiriləcək birgə tədbirlərin razılaşdırılması, hərbi əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri, regionda təhlükəsizlik, o cümlədən hər iki dövlətin Silahlı Qüvvələri arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi məsələləri müzakirə ediləcəkdir.

# Mənəvi-psixoloji hazırlıq diqqət mərkəzində

*Hər bir dövlətin, xalqın gələcəyi onun malik olduğu elmi-intellektual potensialından asılıdır. Milli tərəqqi üçün başlıca vasitə sayılan elm və təhsil həm cəmiyyət, həm də ordu qarşısında dayanan bir çox problemlərin həllində əsas rol oynayır. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin rəhbərliyi ordu sıralarına cəlb olunan gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması məqsədilə hərbi-ideoloji işin tərkib hissəsi kimi ictimai-siyasi hazırlıq dərslərinin keçirilməsinə xüsusi önəm verir. Dərslərin məqsədi şəxsi heyəti hərbi hissənin qarşısında qoyulmuş döyüş tapşırığını yerinə yetirmək üçün səfərbər etməkdir.*



"N" hərbi hissəsində ictimai-siyasi hazırlıq dərslərinin keçirilməsi ilə maraqlanıram. Bölmə komandirinin şəxsi heyətlə iş üzrə müavini baş leytenant İlham Fərzəliyev tabeliyində olan şəxsi heyətə ictimai-siyasi hazırlıq dərsi keçirdi. İlkin olaraq zabit Fərzəliyev mövzunun adını şəxsi heyətə çatdırır: "Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır". Sonra mövzu üzrə suallar izah edilir və əsgərlərin mövzunu necə mənimsədikləri aydınlaşdırılır. Məşğələnin sonunda əsgərlərin biliyi qiymətləndirilir. Otağın nəzərdə tutulan standartlara uyğun olduğu - divarlardakı əyani təbliğat və təşviqat materialları diqqətimdən yayınmır.

Dərs prosesindən sonra baş leytenant İ.Fərzəliyevlə söhbət etmək imkanımız yaranır. Kəlbəcər rayonunun Çıraq kəndində dünyaya gəldiyini bildirərək sözə başlayır.

- Qaçqın düşdükdən sonra Gəncə şəhər Gülüstan qəsəbəsində məskunlaşdıq. Burada 2 saylı orta məktəbi bitirib Gəncə Pedaqoji Universitetinə daxil oldum. Sonra cəbhə xəttində əsgəri xidmətimi keçirdim. 2003-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində kurs keçdikdən sonra leytenant rütbəsi aldım. Onu da qeyd etmək istəyirəm ki, üç il bundan əvvəl "Azərbaycan Ordusu" qəzetində haqqımda məqalə dərc edilmişdi. Qəzetin həmin sayını yaddaşımda dərin iz buraxan xatirə kimi kitab rəfimdə saxlayıram.

Torpaqlarımızın, o cümlədən böyüyüb boya-başa çatdığı Kəlbəcərin işğal altında olması amili həmsöhbətimi əsgəri xidmətdən sonra ordu sıralarına qayıtmağa sövq edib. 2011-ci ildə könüllü olaraq ordu sıralarına qayıdan zabit əvvəl motoatıcı taqım komandiri vəzifəsində xidmət edib. Şəxsi heyətlə iş daha çox üləyincə olduğundan ixtisasını dəyişmək qərarına gəlib.

- Bu gün hərbi hissəmiz Ermənistan silahlı qüvvələri ilə bilavasitə təmas xəttində torpaqlarımızın müdafiəsində dayanır, - deyə zabit sözünə davam edir. - Şübhəsiz, ön xətdə çətin şəraitdə Vətənə övlad borcunu yerinə yetirən əsgərin bacarıqlı döyüşçü kimi formalaşmasının əsas məsuliyyəti şəxsi heyətlə iş üzrə komandir müavinlərinin də üzərinə düşür. Ona görə də şəxsi heyətin dərslərdə hərbi bilik və bacarıqlara yiyələnməsinə xüsusi önəm veririk. Bu da bölmənin döyüş qabiliyyətinin artmasına öz təsirini göstərir. Müasir hərb elmi sübut edir ki, hərbçilər fiziki cəhətdən möhkəm olmaqla yanaşı, mənəvi cəhətdən də güclü olmalı, yüksək intellekti, zəkası, məntiqi ilə seçilməlidir. Hər zaman şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti ilə maraqlanır, ictimai-siyasi hazırlıq, kütləvi iş saatı və silahlı münaqişələr hüququ dərslərinin keçirilməsinə diqqət göstərirəm. Əsgərlərimizə Vətənə sevgi, düşmənə nifrət hisslərini aşılayırıq. İnanıram ki, Vətənə, torpağa tükənməz sevgisi olan əsgər məğlubedilməzdir.

"N" hərbi hissəsində bir daha şahidi olduq ki, Azərbaycanın hərbi büdcəsinin artması ilə əlaqədar Silahlı Qüvvələrin silah-sursat və hərbi texnika ilə təchizatında, qida təminatında əsaslı dəyişikliklər hiss edilir. Düşmənlə üz-üzə dayanan əsgərlərimiz müasir atıcı silahlarla, hərbi texnika və istehkam qurğuları ilə, eyni zamanda mövsümi hərbi geyimlər və yüksək keyfiyyətli qidalarla təmin olunurlar. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğının nəticəsi olaraq, çətin bir bölgədə yaradılmış bu şərait şəxsi heyətin döyüş əzmini daha da artırır.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə, Rusiya və İran Suriya münaqişəsini Moskvada müzakirə edəcəklər



Türkiyə, Rusiya və İran 5 ildən çoxdur davam edən Suriya münaqişəsinin həlli yollarını müzakirə etmək üçün dekabrın 27-də Moskvada bir araya gələcəklər. Bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "TGRT Haber" telekanalına müsahibəsində bildirib. "Bizim məqsədimiz bütün Suriya ərazisində atəşkəsə nail olmaq və münaqişənin siyasi yolla həlli üçün danışıqlara başlamaqdır", - deyə o vurğulayıb.

### Yaponiyanın “İspace” və “JAXA” şirkətləri Ayda qazıntılar aparacaqlar



Yaponiyanın özəl "İspace" şirkəti Aerokosmik Məkanın Mənimsənilməsi (JAXA) şirkəti ilə birlikdə Ayda qazıntılar aparacaqlar.

Tokioda yerləşən "İspace" şirkəti ilə JAXA arasında bu məqsədlə dekabrın 16-da memorandum imzalanıb.

Şirkətlər tərəfindən yayılan məlumatda qeyd edilir ki, layihənin məqsədi Ayın səthində hansı təbii ehtiyatların yerləşdiyini müəyyən etmək və onların Yerə daşınması yollarını araşdırmaqdır. Bu, kosmosdakı təbii ehtiyatların mənimsənilməsi üçün Yaponiyada tətbiq olunacaq ilk konkret proqramdır.

### Moskvada silsilə terror aktlarının qarşısı alınıb



Rusiya Federal Təhlükəsizlik Xidməti Moskvada silsilə terror aktları hazırlayan diversiya qrupunu zərərsizləşdirib. Qrupa üç Tacikistan və bir Moldova vətəndaşı daxildir. Axtarış zamanı onlardan partlayıcı qurğu, avtomat və digər partlayıcı maddələr aşkar edilərək götürülüb.

### ABŞ İrana qarşı sanksiyaları daha 10 il uzatdı



ABŞ İrana qarşı sanksiyalarını daha 10 il uzadıb. Associated Press agentliyinin yaydığı məlumata görə, sənəd dekabrın 15-də gecəyarısı qüvvəyə minib.

Birləşmiş Ştatların qanunlarına görə, bu müddətdək Prezident Barak Obama ABŞ Konqresinin İran əleyhinə sanksiyaların uzadılmasına dair qəbul etdiyi qanun layihəsini ya imzalamalı, ya da rədd etməli idi. Lakin Prezident bunların heç birini etməyib. Buna görə də sənəd avtomatik olaraq qanun qüvvəsinə minib. Xatırladaq ki, 2015-ci ilin iyulunda Vyanada İranın nüvə proqramı üzrə birgə fəaliyyət planı razılaşdırılmışdı. Bu il yanvarın 16-da BMT, ABŞ və Avropa İttifaqı İrana nüvə proqramı ilə bağlı tətbiq olunmuş iqtisadi və maliyyə sanksiyalarını ləğv etmişdilər. Bununla yanaşı, ABŞ prezidentinin İran İslam Respublikasına qarşı sanksiyalar haqqında fərmanları hələlik tam ləğv olunmayıb, yalnız dayandırılıb.

### Misirdə terrorçunu edam ediblər



Ölüm cəzasına məhkum edilmiş terrorçu Adil Xabara Misir həbsxanasında edam edilib.

Misirdə çıxan "Əl-Youm 7" qəzetinin verdiyi məlumata görə, ölüm hökmü artıq icra edilib.

Bildirilir ki, Adil Xabara Sinay yarımadasının şimalında misirli əsgərlərin kütləvi şəkildə qətlə yetirilməsində ittiham üzrə məhkum olunub.

**AZƏRTAC-ın materialları əsasında**

Düşüncələr



# Müharibə başa çatacaq!..

Müharibə tarixə pərsəngdi...

Qan-qadadı, ağrı-acıdı, ölümdü, qaçqınlıqdı, sönən ocaqdı, ana fəryadıdı, bacı naləsidi müharibə...

Müharibə ömürə yükdü; gündüzlərin qəmi-qəhəridi müharibə, gecələrin açılmayan səhəridi. Müharibədə yağan yağışlar arzuya-istəyə yağır, ürəyə yağır - ürəyi isladır...

Uşaqlar yaddaşına nələri köçürməlidi, nələr köçürür? - müharibə uşaqların düşüncələrini yaralayır. Uşaqların müharibəni dərk eləməsi dünyanın üzqaralığıdı...

1991-ci ildə eşitdiyim bir hadisəni xatırlayıram:

Yerli müdafiə batalyonlarına (dəməli əhaliyə) kömək kimi Qazax rayonuna ezam edilənlərin tərkibində milis kapitanı İsmayıl Həkimov da vardı. Ermənilər onun təhkim olunduğu kəndi də gərginlikdə saxlayırdı. Milislərin müdafiəyə cəlb edilməsi ermənilərin "gözünü qorxutsa da" təhlükə sovuşmamışdı...

...Postlar kəndin qurtaracağındaydı...

İsmayıl növbəni dəyişmək üçün posta tələsirdi. Ora piyada gedəcəkdi. Kəndi çıxa-çıxda arxadan kiminsə yaxınlaşdığını hiss etdi. Ayaq saxladı. 10-12 yaşlı bir qızıydı. Ona çatanda dayandı. Nəsə demək istəyirdi, deyə bilmirdi. Udqundu. Gecdən-gec:

- Əmi, - dedi. - Sənin də güllələrin varmı?

İsmayıl əvvəl-əvvəl duruxdu, sonra baxışında, duruşunda bir doğmalıq hiss etdiyi qızın saçlarını oxşadı. Ağlına qəribə başaçılmaz fikirlər gəldi, - gözlənilməz sorğu düşüncələrini titrətdi. "Var, qızım", - dedi. "Gülləleri neyləyirsən?".

Qız üzünə baxdı İsmayılın. Umacaqlı baxışlarıydı. Kövrək baxışlarıydı. Qətiyyətli baxışlarıydı:

- Birini saxla, nolar. Saxla, atma. Ermənilər kəndimizə girsə vurarsan məni. Əsir düşməyim...

İsmayıl bu kəlmələri eşidincə "ölüb-dirilməzdimi?"...

Budur, müharibə. Müharibə uşaqlıq dünyasından qopardılan uşaqların düşüncələrinə sarmaşıq olur. Düşüncələri sıxdıqca sıxır...

...Ağdamda ağır döyüşlər gedirdi. Yerli müdafiə batalyonları da, əhali də ermənilərin hücumlarını dəf etmək, işğal niyyətini çilikləmək üçün döyüşürdü. Əli silah tutanlar səngərlərdəydi...

Yanaşı səngərlərdəydilər: ata və iki oğlu. Dan yeri sökülər-sökülməz ermənilər hücuma keçdi. Bu döyüş işğal niyyətiylə vətənsevərliyin, torpaqsevərliyin döyüşüydü...

Ata da atışırdı, oğulları da...

Ata "Ata!" - səsinə, harayına boylandı - oğlu yaralanmışdı. Səngərindən çıxdı, oğlunu ölümdən xilas etmək istədi. Səngərin qənşərində diz çökdü. Atanın sağ çiyninə güllələr dəymişdi. "Oğul!" - dedi ata. Hələ atışan oğul atasının səsini eşitdi. Qarşısını, sağını-solunu didişdirən güllələrə məhəl qoymadan atasına sarı atıldı. "Qardaş!" - harayı "ayaqlarına dolaşdı". Sağda - yaralı ata, solda - yaralı qardaş. Hansının hoyuna yetəydi, döyüşün içindən hansını çıxardaydı?..

Bir addım sağa atdı, "Oğul!" harayına dayandı, bir addım sola atdı, "Qardaş!" - harayı saxladı "sümüyü indi-indi bərkiyən", çarəsi düyün düşən cavan. Bu an elə bil sinəsinə köz basdılar - ürəyindən yaralandı. Son nəfəsi atasını, qardaşını haraylamağa çatmadı...

Bir döyüşdə ata iki oğluyla şəhid oldu...

Budur, müharibə...

İşğalçılığın bəşəriliyə vurduğu yaralar budur. Budur, müharibənin qan-qadaya, ölümə hərisliyi...

10 yaşlı uşaq səksəkələr yaşayır - müharibədi...

Ata iki oğluyla şəhid olur - müharibədi...

Vətəndaşlıq borcu son nəfəsəcən ödənilməli borcdu. Bu borc hər birimizin ruh ortağıdı; ruhumuz bu borcun cəfakeş daşıyıcısıdı. Belə yaşayırıq, belə yaşayacağıq.

Ocağı, çırağı sönənlər olur - müharibədi...

Gülü yarpıza dönənlər olur - müharibədi...

"Azərbaycan!" - deyənlərin ocağı, çırağı sönməyəcək!..

"Azərbaycan!" - deyənlərin gülü yarpıza dönməyəcək!..

Müharibə torpaqlarımız işğaldan azad ediləndə qurtaracaq...

Müharibə qurtaracaq! Azərbaycan əsgərinin qələbəsiylə!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# "Ermənistan absurd bəhanələrlə faktı inkar etməyə çalışır"



*Dekabrın 12-də cəbhə xəttinin müxtəlif istiqamətlərində özünün iki pilotsuz uçuş aparatını (PUA) itirən Ermənistan tərəfi hər zaman olduğu kimi, absurd bəhanələr gətirməklə real faktı növbəti dəfə inkar etməyə çalışır.*

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi utanmadan onlara məxsus vurulmuş PUA-ları bu dəfə guya "Azərbaycanlı uşaqların oyuncaqları" kimi qələmə verir. Halbuki bu vaxtadək elə Yerevanın müxtəlif səviyyəli rəsmiləri özləri etiraf edərək Ermənistan ordusunun təminatına kustar üsulla və əldəqayırma pilotsuz uçuş vasitələrinin daxil edilməsi barədə dəfələrlə məlumatlar səsləndiriblər.

Fotonun sol və sağ küncələrində pərlərdən də göründüyü kimi bu, Ermənistana məxsus vurulan pilotsuz uçuş aparatlarından birindən əldə edilib. Fotoda PUA uçuşa buraxılmadan əvvəl aparatı idarə etmək üçün əlində pult olan hərbi qulluqçu və onun ətrafına toplaşan digər hərbçilərin prosesi izləməsi təsvir olunub.

Bu, bir daha sübut edir ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi bütün fəaliyyətlərini yalnız yalan və saxtakarlıq üzərində qurmaqla dünya ictimaiyyətini aldatmağa cəhd göstərir.

# Gənc jurnalistlər üçün "Həyəcan siqnalı-2" layihəsinə yekun vurulub

*Azərbaycanda jurnalistikanın inkişafına töhfə verərək gənc jurnalistlərin hərbi sahədə biliklərini artırmaq, onları hərbi əməliyyatlar zamanı informasiyanın cəmiyyətə düzgün ötürülməsi ilə bağlı məlumatlandırmaq məqsədilə həyata keçirilən "Həyəcan siqnalı-2" layihəsinin icrası başa çatdırılıb.*

AZƏRTAC xəbər verir ki, layihə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə, Müdafiə Nazirliyinin, Mətbuat Şurasının, "Sağlam Düşüncə" Gənclər Təşkilatının dəstəyi ilə icra olunub.

Layihə çərçivəsində 25 gənc jurnalistə "Son dövrün ekstremal jurnalistika təcrübəsi", "Müxbirin ekstremal şəraitdə davranış metodları", "Müharibə jurnalistikasının qaydaları ilə bağlı nəzəri və praktiki biliklər" və s. mövzularda təlimlər keçirilib.

Təlimlərdə "Dinc Dünya" Araşdırma Mərkəzinin rəhbəri, hərbi jurnalist Əlisəfa Mehdiyev, "Azərbaycan Ordusu" qəzetinin müxbiri Lalə Hüseynova və digər ekspertlər iştirakçılara müharibə jurnalistikası barədə ətraflı məlumat verib, onların suallarını cavablandırıblar.

Yekunda layihə rəhbəri Türkan Nadirqızı iştirakçılara sertifikatlar təqdim edib.

# Hərbi yeniliklər, ənənələr



## PDM-3 (piyadaların döyüş maşını)

PDM-3 (piyadaların döyüş maşını) Rusiya istehsalı olan zirehli, tırtıllı maşındır. Çəkisi 18,7 tondur. Heyəti üç nəfərdən ibarətdir, maşına beş nəfər desant və əlavə iki nəfər də yerləşdirilə bilər. Sürəti şose yolda saatda 70 kilometr təşkil edir. Maşın gündüz və gecə, uzaqölçən lazerli nişangahlarla təchiz edilib.

Piyadaların döyüş maşını şəxsi heyəti ön xəttə daşımaq, döyüş əməliyyatlarında onların silahlanmasını və mühafizəsini artırmaq üçün nəzərdə tutulub. PDM-3 1977-ci ildə Kurqanın maşınqayırma zavodunda hazırlanıb. 1983-1986-cı illərdə sınaqlardan keçirildikdən sonra silahlanmaya qəbul edilib. Fransa istehsallı teplovizion nişangahla, buraxıcı-top qurğusu, TƏİR-lə, 30 mm çaplı qoşa topla, pulemyotla təchiz edilib. Maşın 10 kilometr məsafəyə qədər suda üzməyə qadirdir. Dənizdə 5 ballıq fırtınada da üzə bilir. Mühərriki dizellidir. Su üzərində atəş aça bilən və hidromexaniki asılqana malik olan ilk maşındır. Maşının "Vityaz" nişangah kompleksi hədəfləri tez bir vaxtda məhv etməyə imkan verir. Maşında hədəfi avtomatik müşayiətetmə sistemi quraşdırılıb. Təkmilləşmiş PDM-3 maşını uzaq məsafələrdə yerləşən hədəfləri məhv etmək üçündür. Maşın düşmənin tankəleyhinə raket və qumbaralarından əlavə zirehli ekran və "Arena-3" kompleksi hesabına mühafizə olunur. "Ştora -1" kompleksilə birlikdə PDM-3-ün avtomat və yarımavtomat tuşlama sistemi onun TƏİR-lərdən effektli müdafiəsini təmin edir. Əlavə "Kaktus" sistemi PDM-3-ü döyüş vasitələrindən istifadə zamanı onun yaşarlılığını artırır. Döyüş maşınının "Baxça-U" yeni modeli müasir idarəetmə sistemi, təchizat mexanizmi və döyüş dəstləri ilə fərqlənir. "Draqun" PDM-3-ün modernləşdirilmiş variantıdır, desantların daşınması və yerləşdirilməsi üçün nəzərdə tutulub.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Baş leytenant Məlikov Aqil Niyaz oğluna 2009-cu ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Əsgər Muxtarov Zamin Əli oğluna və əsgər Əhmədli İsmayıl Elman oğluna 2016-cı ildə verilmiş hərbi biletlər itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 592
Nüsxə 4650